*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2025*
*Səh. 448-452*

https://doi.org/10.62837/2025.5.448

**QULIYEVA PƏRVANƏ ELMAR QIZI**
**Gəncə Dövlət Universiteti Publi Hüquqi Şəxs**
**Azərbaycan və dünya ədəbiyyatı kafedrası**
pervane.quliyeva73@gmail.com

# MİLLİ POEZİYAMIZIN İFTİXARI – MƏMMƏD ARAZ

**Açar sözlər:** ədəbiyyat, tədqiqat, yaradıcılıq, müasir, müdriklik, sənətkarlıq, xalq, bədii
**Ключевые слова:** литература, исследование, творчество, современный, мудрость, мастерство, народный, художественный
**Keywords:** literature, research, creativity, modern, wisdom, craftsmanship, folk, artistic

Müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, şair Məmməd Araz yaradıcılığında folklor motivlərinin tədqiqinə həsr olunmuş tədqiqat işi ilk növbədə mövzunun aktuallığını təsdiqlədi. Doğrudan da, Məmməd Araz yaradıcılığı folklor motivləri ilə bir çox monoqrafik tədqiqatların mövzusu olacaq qədər zəngindir. Belə ki, şairin yaradıcılığında folklor motivləri, sadəcə, poetik görüntü, yaxud nitq folkloru rolunu oynamır: Azərbaycan folkloru, etnik-milli düşüncənin folklor layları Məmməd Araz yaradıcılığı nümunəsində müasir Azərbaycan poeziyasının milli poetik formulları səviyyəsində təqdim olunur.

Xüsusi olaraq qeyd etmək lazımdır ki, Azərbaycan poeziyasının əbədi yaşar şairlərindən biri kimi Məmməd Araz həm də, mütərəqqi ənənələrin layiqli davamçısı olaraq əsərlərində dünənlə bu günün səsləşməsini, uzlaşmasını tənzimləyə bilir, oxucuya təqdim etdiyi şeirlərində xalqın müdriklik xəzinəsindən faydalanma əmsalına görə fərqlənirdi. Şifahi xalq yaradıcılığından səmərəli istifadə edən şairin şeirlərində olan bədiilik, bədii ifadə vasitələrinin, təşbehlərin bolluğu şairin sənətkarlıq xüsusiyyətlərindən xəbər verir. Məmməd Araz sənətkarlıq baxımından şifahi xalq yaradıcılığından çox şeylər əxz etmiş, sözün sərrast, yerində deyilməsini öyrənmiş və əsərlərində işlətmişdir. Aşıq şeiri formaları, heca bölgüsü, qafiyə sistemindən novatorcasına yararlanaraq xalq şeirinin qoşma, gəraylı, bayatı, oxşama, holavar şəkillərində yazdığı əsərlərində Məmməd Araz sözün həqiqi mənasında söz zirvəsini fəth edə bilmişdir. Məmməd Arazın gərgin axtarışları, söz incəlikləri ilə istedadının gücünü ortaq məxrəcə gətirə bilməsi nəticəsində poeziyamızda folklorizm ənənələri inkişaf etmiş, formaca yeniləşmiş, dol-ğunlaşmışdır. Onun poeziyasında aforizmləşmiş misralar, beytlər və bəndlər Məmməd Araz dühasının böyüklüyünü, kamil söz ustadı olduğunu nümayiş etdirən, əbədi yaşarlığını təmin edən cəhətlərdəndir.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2025*
*Səh.448-452*

Azərbaycan poeziyasının əbədiyaşar şairlərindən biri kimi Məmməd Araz şifahi xalq ədəbiyyatının ən mütərəqqi ənənələrini əsərlərində ləyaqətlə davam etdirə bilmişdir. Şairin oxucuya təqdim etdiyi şeirlərində xalqın müdriklik xəzinəsindən faydalanması yüksək mənəvi keyfiyyətlərin göstəricisidir.

Milli poeziyamızın iftixarı olan Xalq şairi Məmməd Araz haqqında yazdığım məqalələrin birində qeyd etmişdim ki, Azərbaycan torpağını Arazsız təsəvvür etmək mümkün olmadığı kimi, Azərbaycan milli poeziyasını da Məmməd Arazsız təsəvvür etmək çox çətindir. Azərbaycan əlli milyonluq bir xalqın – azərbaycanlıların şəriksiz Vətəni olduğu kimi, Məmməd Araz yaradıcılığı da əlli milyonluq xalqımızın şəriksiz poeziyasıdır, ədəbiyyat, bədii düşüncə və təfəkkürünün vətənidir. Bu da ondan irəli gəlir ki, bu poeziyada hər bir oxucu öz hisslərini, düşüncə və təfəkkürünü görür, dərk edir, özünü bir çox məqamlarda Məmməd Araz yaradıcılığı ilə ifadə etmiş olur. Buna görə də ədəbiyyatımızın, milli-mənəvi dəyərlərimizin böyük və əvəzsiz hamisi ümummilli liderimiz Heydər Əliyev Məmməd Araz poeziyasına, onun fəlsəfəsinə və bəşəri dəyərinə çox yüksək qiymət verərək Məmməd Araza xitabən demişdir: **“Doğrudur, bəzən bu yaradıcılığınıza görə siz sıxılmısınız da, sizi incidiblər də, sizə kəm baxıblar da, sizi açıq və ya gizli tənqid də eləyiblər. Ancaq mənə belə gəlir ki, Məmməd Arazın, Bəxtiyar Vahabzadənin, Xəlil Rzanın qəhrəmanlığı – mən bu sözü tam cəsarətlə deyirəm – elə ondan ibarətdir ki, onları heç bir şey qorxutmayıbdır. Onların qarşısını heç bir şey kəsməyibdir. Onlar öz işlərini görüblər. Xırda-xırda, çox incə, çox zərif görüblər və məhz bu incəliyə, zərifliyə, nazikliyə görə də sizin bu fikirləriniz bizim vətənpərvər insanlarımızın, xalqımızın ürəyinə yol tapıbdır”.**

Bu da bir həqiqətdir ki, ən böyük məhək daşı, silinməz, pozulmaz tarixi yaddaş xalqın qəlbidir, xalqın tribunasıdır. Məmməd Araz hələ lap erkən yaradıcılığı dövründə (50-ci illərdə) yazdığı şeirlərinin birində bu həqiqətə böyük inam bəsləmiş və yazmışdır:

Elin nəfəsidir ən böyük əsər,
Duysam da, özümü öyə bilmərəm.
Yüz bülbül səsi də mənə versələr,
Elsiz bir nəğməmi deyə bilmərəm.

Ədəbiyyata tükənməz el məhəbbəti, el sədaqəti ilə gələn Məmməd Araz xalq mənəviyyatının dərinliyinə vardıqca əbədiyyət yolunun yolçusu oldu.

Zamanın kəsişən və kəsişməyən nöqtələrində bütün ömrü boyu “hər adi ölçüyə, ülgüyə” gəlməyən Məmməd Araz ədəbiyyata, böyük poeziyaya bütöv Vətən kimi baxırdı. Çünki hər bir xalqın Vətəninin sərhədləri onun sözünün sərhədindən başlanır və bu sərhədlə də bitir. Sözün sərhədi də xalqın mənəviyyatından, onun fikir və düşüncəsinin gücündən mayasını tutur. Məmməd Araz böyük sözün – Vətənin sərhədində həmişə alınmaz bir səngər, basılmaz ordu gücünə malik olan söz mülkünün tacidarıdır.

Məmməd Arazın gərgin axtarışları, söz incəlikləri ilə istedadının gücünü ortaq məxrəcə gətirə bilməsi nəticəsində poeziyamızda folklorizm ənənələri həm ideya-məzmun, həm də forma cəhətdən yeniləşmiş, dolğunlaşmışdır. Onun poeziyasında aforizmləşmiş misralar, beytlər və bəndlər Məmməd Araz dühasının böyüklüyünü, kamil söz ustadı olduğunu nümayiş etdirən, poetik təfəkkürünün dərinliyini təmin edən cəhətlərdəndir.

Məmməd Araz sözü qədərində işlədib, dərin məzmunlu söz tərkibləri yaradaraq, oxucunun maraq və təşəkkürünü qazanmışdır. Eyni zamanda qeyd etmək lazımdır ki, Məmməd Arazın yaradıcılığında xalq müdrikliyindən gələn, şifahi ədəbiyyatın hikmətlərindən qaynaqlanan çoxlu əlamətlər vardır və bu əlamətlər də mənəvi sərvətlərimizi öyrənmək, tədqiq etmək, araşdırmaq məqsədinə xidmət edir. Tarixən sənət adamlarının söz boğçaları nağıl, dastan, bayatı, qoşma və məsəllərlə dolu olmuşdur. Xalqın həyatını, işini, məişətini onun yaradıcılığından ayrı təsəvvür etmək mümkün olmadığı kimi, yaradıcılıqda da xalq həyatının tərənnümü əsas şərt kimi qəbul edilmişdir. Məmməd Araz da ömrü boyu folklor ilə təmas bağlamış və ondan qidalanmışdır. Hər bir insanın dünyagörüşünün formalaşmasında, onun yetkinləşməsində folklorun müstəsna rolu danılmazdır. Xüsusilə də yaradıcı, söz zirvəsini fəth etməyə çalışan adamların həyatında folklora münasibət, folklordan yararlanmaq, hətta bəzən folklorun zənginləşməsində töhfələr vermək önəmli yer alır. Bu baxımdan apardığımız araşdırmalar zamanı Məmməd Arazın əsərlərində rast gəldiyimiz folklor məziyyətləri ədibin sənətkarlıq xüsusiyyətlərindən sayılmış, folklordan bəhrələnməsi xalqla yaxınlığın əlaməti kimi görülmüşdür.

Məmməd Araz vətənin dərdini özünün dərdi kimi qəbul edən sənətkarlardan idi. Vətənin ən ağır günlərində zəifləmiş və üzgün olmasına baxmayaraq əsgərlərin görüşünə gedirdi, özünün yeni şeirləri ilə əsgərlərimizin döyüş ruhunu yüksəltməyə çalışır, onlara mənəvi arxa-dayaq olmaq istəyirdi. Şairin fiziki ömrü başa çatsa da, mənəvi ömrü davam edir. Dünya durduqca onun yaratdığı söz inciləri də duracaq, oxunacaq və xəyallarımızda şairin nurlu surəti daima canlanacaqdır. Şairin "Dədəm Qorqud sesləməsi" poemasında belə bir parça diqqətimizi cəlb etdi:

Özün köçdün, hayın qaldı dünyada,
Səsləmələr payın qaldı dünyada.
Dədəm Qorqud, harayını eşitdim,
Dədəm Qorqud, çağrışına hay dedim.

Şairin Dədə Qorquda müraciətlə yazdığı bu poetik misralar, duyğular əslində, Məmməd Araz yaradıcılığının ümumi ruhunu təcəssüm etdirməklə onun milli poeziyanın tari- xində oynadığı rolun ifadəsidir. Həmçinin qeyd etmək lazımdır ki, oxucuların ümumi təskinlik tapacağı bir məqam yeenə də şairin özünün ifadəsi ilə desək, onun əbədi yaşarlığını təmin edən poetik fikirlərin insan qəlbində doğurduğu inam və şairin qənaətidir. Belə ki, şair həmişə bizimlədir, bizim aramızdadır, ürəyimizdə, iç dünyamızdadır, sanki bizi duyur, bizimlə birlikdə nəfəs alır, yaşayır:

Gülüm, bir də görüşünə yubansam,
Adımı tut, harda dağlar dumansa.
Gözünü sıx, hansı daşda su yansa,
O daş altda Məmməd Araz yaşayır .

## ƏDƏBİYYAT

1. Abbasov E. Koroğlu: poetik sistemi və strukturu. Bakı: Nurlan, 2008
2. Abdulla B. "Kitabi-Dədə Qorqud"da gerçəkliyin etnomifik qavrayışı (Dağ və dərə anlayışı), Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqatlar. VIII kitab. Bakı: Səda, 1999
3. Abdullayev B. Y.V.Çəmənzəminli və folklor. Bakı: Elm, 1981
4. Abdullayeva A. Müşfiq və folklor. Bakı: Gənclik, 1996

## Xülasə
## MİLLİ POEZİYAMIZIN İFTİXARI – MƏMMƏD ARAZ

Məmməd Araz sözü qədərində işlədib, dərin məzmunlu söz tərkibləri yaradaraq, oxucunun maraq və təşəkkürünü qazanmışdır. Eyni zamanda qeyd etmək lazımdır ki, Məmməd Arazın yaradıcılığında xalq müdrikliyindən gələn, şifahi ədəbiyyatın hikmətlərindən qaynaqlanan çoxlu əlamətlər vardır və bu əlamətlər də mənəvi sərvətlərimizi öyrənmək, tədqiq etmək, araşdırmaq məqsədinə xidmət edir. Tarixən sənət adamlarının söz boğçaları nağıl, dastan, bayatı, qoşma və məsəllərlə dolu olmuşdur. Xalqın həyatını, işini, məişətini onun yaradıcılığından ayrı təsəvvür etmək mümkün olmadığı kimi, yaradıcılıqda da xalq həyatının tərənnümü əsas şərt kimi qəbul edilmişdir. Məmməd Araz da ömrü boyu folklor ilə təmas bağlamış və ondan qidalanmışdır. Hər bir insanın dünyagörüşünün formalaşmasında, onun yetkinləşməsində folklorun müstəsna rolu danılmazdır. Xüsusilə də yaradıcı, söz zirvəsini fəth etməyə çalışan adamların həyatında folklora münasibət, folklordan yararlanmaq, hətta bəzən folklorun zənginləşməsində töhfələr vermək önəmli yer alır. Bu baxımdan apardığımız araşdırmalar zamanı Məmməd Arazın əsərlərində rast gəldiyimiz folklor məziyyətləri ədibin sənətkarlıq xüsusiyyətlərindən sayılmış, folklordan bəhrələnməsi xalqla yaxınlığın əlaməti kimi görülmüşdür.

## Резюме
## ГОРДОСТЬ НАШЕЙ НАЦИОНАЛЬНОЙ ПОЭЗИИ – МЕМАД АРАЗ

**Ст.пр.П.Е.Кулиева**

Мамед Араз использовал слово в своей судьбе, создал глубокие по смыслу словообразования и завоевал интерес и благодарность читателя. В то же время следует отметить, что творчество Мамеда Араза содержит много знаков, которые исходят из народной мудрости и мудрости устной литературы,

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2025*
*Səh. 448-452*

и эти знаки также служат цели изучения, исследования и изучения нашего духовного богатства. Исторически словарный запас художников был полон сказок, эпосов, баяты, гошмов и притч. Так же, как невозможно представить жизнь, работу и образ жизни народа отдельно от его творчества, так и прославление народной жизни было принято как главное условие в творчестве. Мамед Араз также соприкасался с фольклором на протяжении всей своей жизни и питался им. Исключительная роль фольклора в формировании мировоззрения каждого человека и его взрослении неоспорима. Особенно в жизни творческих людей, стремящихся покорить вершины слова, отношение к фольклору, извлечение пользы из фольклора, а иногда и содействие обогащению фольклора играют важную роль. В связи с этим в ходе наших исследований фольклорные качества, с которыми мы столкнулись в произведениях Мамеда Араза, рассматривались в числе художественных характеристик писателя, а его извлечение пользы из фольклора рассматривалось как признак близости к народу.

**Summary**

**PRIDE OF OUR NATIONAL POETRY – MAMMAD ARAZ**

**Hd.tch.P.E.Guliyeva**

Mammad Araz used words in his destiny, created deep-meaning word formations, and gained the interest and gratitude of the reader. At the same time, it should be noted that in Mammad Araz's work there are many signs that come from folk wisdom, stemming from the wisdom of oral literature, and these signs also serve the purpose of studying, researching, and exploring our spiritual wealth. Historically, the vocabulary of artists has been full of fairy tales, epics, bayati, goshms, and parables. Just as it is impossible to imagine the life, work, and lifestyle of the people separately from their creativity, the glorification of folk life has been accepted as the main condition in creativity. Mammad Araz also came into contact with folklore throughout his life and was nourished by it. The exceptional role of folklore in the formation of the worldview of each person and its maturation is undeniable. Especially in the lives of creative people who strive to conquer the heights of the word, the attitude towards folklore, benefiting from folklore, and sometimes even contributing to the enrichment of folklore play an important role. In this regard, during our research, the folklore qualities we encountered in Mammad Araz's works were considered among the artistic characteristics of the writer, and his benefiting from folklore was seen as a sign of closeness to the people.

**Rəyçi: Axundova Nəzmiyə M.q.**

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2025*
*Səh.448-452*